# XOCAVƏND RAYONUNUN TARİXİ ABİDƏLƏRİNİ RESTAVRASİYA ETMƏK ÜÇÜN İRƏLİ SÜRÜLƏN FİKİRLƏR

Nuranə ALLAHVERDIYEVA*

**Xülasə:** Azərbaycan əski insan məskənlərindən biri kimi zəngin tarixi və geniş mədəni irsə malikdir. Qayaüstü rəsmlər, tarixi-memarlıq heykəlləri, mədəniyyət əsərləri, eləcə də arxeoloqlar tərəfindən aparılan tədqiqatlar zamanı aşkarlanan tapıntılar bu xalqın qədim dövrlərə gedib çıxan zəngin mədəni irsindən xəbər verir.

Qarabağda yerləşən ölkə əhəmiyyətli tarixi-memarlıq abidələrinə Laçındakı VI əsrə aid Alban Ağoğlan monastırı, XIV əsrin Məlik Əjdər türbəsi, Xocavənddəki IV əsr Alban Amaras monastırı və digər Alban məbədləri, Xocalıda XVIII əsrin Əsgəran qalası, XIV əsrin türbələri, Kəlbəcərdə VI əsrin Müqəddəs Yaqub monastırı, XIII əsrin Xatirəvəng monastırı, Lex qalası və bir çox digər tarixi abidələr daxildir.

Xocavənd ərazisində yerləşən mədəniyyət abidələrimizin Ermənistanın işğalçı hücumları nəticəsində tamailə məhv edilməsi və yaxud dağıdılması Azərbaycan xalqının tarixi irsinə qarşı amansız bir həmlədir. Bu müddət ərzində Xocavəndin memarlıq abidələri dağıdılmış, yandırılmış, yararlı qalan hissələr isə baxımsızlıqdan yararsız vəziyyətə düşmüşdür. Rayonda qeydə alınan belə abidələrə monastırlar, günbəzlər, məscidlər, türbələr, dini məbədlər daxildir ki, onlar erməni amansızlığı nəticəsində məhv olmuşlar.

İkinci Qarabağ müharibəsindən sonra Xocavəndin erməni tapdağından xilas edilməsi bizə həmin ərazilərdəki tarixi-memarlıq irsinin indiki vəziyyətini tədqiq etmək və onların bərpası üçün tədbirlər görmək imkânı yaradır. Bu abidələrin bərpasına başlamazdan əvvəl onların ilkin görkəmini, tarixi əhəmiyyətini və funksiyasını anlamaq vacibdir.

Bu tarixi abidələrin qorunması və bərpası Azərbaycanın mədəni irsinin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır

***Açar sözlər:*** *Xocavənd, restavrasiya, tarixi abidələr, erməni təcavüzü*

## Advanced Ideas to Restorate the Historical Monuments of Khojavand District

**Abstract:** Azerbaijan has a rich historical and large cultural heritage as one of the old human settlements.Rock paintings, historical and architectural sculptures, cultural works, as well as research conducted by archeologists, the discovery of these people gives ancient times of the rich cultural heritage.

Albanian Agoglan Monastery, Hearth Amaras Monastery and other Albanian Agriculture of the XIV century, Khojaly in Khojaly in Khojaly in Khojaly, Khojaly in Khojaly in KhojalyJacob's monastery, the XIII century includes the unique monastery, Lex Castle and many other historical monuments.

Tamily destruction or destruction of our cultural monuments in Khojavend as a result of Armenia's aggressive attacks are a ruthless attack on the historical heritage of the Azerbaijani people. During this period, the architectural monuments of Khojavend were destroyed, and the rest of the burned and suitable parts were unusable. Even registered monuments in the district include monasteries, dome, mosques, tombs, religious temples, and they were destroyed as a result of Armenian merciless.

After the second Karabakh war, the rescue of Khojavend from the Armenian finds us the opportunity to study the current state of historical and architectural heritage in those areas and take action to recover. It is important to understand their primary appearance, historical significance and function before the restoration of these monuments.

Protection and restoration of these historical monuments is important in terms of transferring the cultural heritage of Azerbaijan to future generations.

***Key Words:*** *Khojavand, restoration, historical monuments, Armenian aggression*

## Giriş

Xalqımız uzun illər boyu Ermənistan işğalçı qüvvələri tərəfindən təkcə hərbi qüvvə ilə deyil, həm də maddi və mənəvi olaraq da təcavüzə məruz qalmışdır ki, bu zaman bu torpaqlara aid xalqımızın mənəvi sərvəti olan mədəniyyət nümunələri məhvə məruz qalıb, ya da ermənilər tərəfindən “özününküləşdirilib”. Tarixi cinayət hesab etdiyimiz bu hal yalnız Azərbaycan xalqına, türk millətinə qarşı deyil, həm də dünya dəyərlərinə zidd yolverilməz hərəkətdir, suçdur.

İki əsrdən çox idi ki, Azərbaycan xalqına qarşı davam edən erməni təcavüzü nəticəsində, tarixi-dini abidələr, müqəddəs ocaqlar və məbədlər də zərər görmüşdü. Mədəniyyət nümunəsi hesab edilən tarixi-memarlıq abidələrimiz Azərbaycan xalqının milli

* Bakı Avrasiya Universiteti, doktorantura şöbəsi, Filologiya fakültəsi, Nəzəri dilçilik və türk dilləri kafedrası. Bakı, Azərbaycan nurane.ava93@gmail.com ORCİD: 0009-0002-6763-991X

kimliyini, dəyərlərini, keçmişini və bu gününü, əcdadlarımızdan gələn adətlərini qoruyub saxlayan şəxsiyyət vəsiqəsidir.

Bu səbəbdən də, Ermənistanın təcavüzkar siyasətinin bir hissəsi olaraq Azərbaycanın işğal olunmuş ərazilərindəki maddi-mədəniyyət nümunələrinin, o cümlədən tarixi-dini abidələrin məhv edilməsi həyata keçirilirdi. 27 sentyabrda başlayan antiterror əməliyyatlarından sonra erməni işğalında olan torpaqlar həqiqi sahiblərinə qayıtdı. Hal-hazırda Xocavənd ərazisində dağıdılmış yaşayış infrastrukturunun bərpası üçün toplu şəkildə işlər görülür, infrastrukturun müxtəlif sahələrinin inkişafı və özünə gəlməsi üçün fərqli tədbirlər görülür və bu tədbirlər planı öz təsdiqini tapır.

Ta qədimdən insanların məskən saldığı yerlərdən biri olan bu rayonun flora-faunası müxtəlif təbii yeraltı-yerüstü sərvətlərlə, o cümlədən tikinti materialları, faydalı qazıntılar, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. Rayonun Tuğ kəndinin 5 km-lik məsafəsində V əsrə aid “Alban” kilsəsi, Tuğ kəndi ərazisində XII–XVII əsrlərə aid “Alban” kilsələri, I–V əsrlərə aid “Alban” qəbiristanlıqları, Muğanlı kəndindəki “Seyid Rza” günbəzi erməni işğalçıları tərəfindən amansızca dağıdılmışdır.

**Ermənistanın Xocavəndin Tarixi, Mədəni Və Mənəvi Abidələrinə Qarşı Terroru**

Tuğ kəndindən 5 kilometr məsafədə, Qarabağ silsiləsinin ətəyində yerləşən Alban kilsəsi V əsrə aid tarixi memarlıq abidələrimizdən biridir. Kilsənin Alban adlandırılması Qafqaz Albaniyasının qədim əhalisi olan albanlarla əlaqədardır. Bu kilsə xristian dinində ibadət üçün istifadə olunan bir binadır. Tuğ kəndinin işğalından sonra bu mədəni və dini abidə də dağıntılara məruz qalmışdır. Əvvəllər Alban kilsəsinin olduğu ərazilərdə yaşayan salakətinlilər, ermənilər burada məskunlaşdıqdan sonra həmin yeri tərk edərək bir neçə kilometr aşağıda yeni bir kənd salmışlar.

Böyük Tağlar kəndi ərazisində yerləşən abidələrdən biri Alban məbədi adlanır. XIII əsrə aid olan bu məbəd 1241-ci ildə inşa edilib. Alban məbədi Xocavənd rayonunun dəyərli tarixi-memarlıq abidələrindən biri kimi tanınır (ATL – c. 2, 2007).

İbadət və dini mərasimlərin keçirilməsi üçün nəzərdə tutulan tikililər məbəd adlanır. Məbədlərin əhəmiyyəti yalnız yerinə yetirdiyi dini funksiyalarla məhdudlaşmır; onlar həm də həyata keçirdikləri dini ideyalarla daha geniş bir mənaya malikdir. Milli memarlıq abidəsi sayılan məbədlər ictimai yığıncaqlar, təntənəli mərasimlər üçün yer olmuş və memorial xarakter daşıyır.

Məbədin “Alban” adını alması Qafqaz Albaniyasının qədim əhalisi olan albanlarla bağlıdır. Albanların adı ilk dəfə miladdan əvvəl IV əsrdə qeyd olunmuşdur. Albanlar Azərbaycan ərazisində formalaşmış Azərbaycan xalqının əsas etnik komponentlərindən biridir. Arxeoloji tədqiqatlar və qazıntılar zamanı Azərbaycanda çox sayda qədim Alban abidələri aşkar edilmişdir.

IX əsrdə Amarasda böyük bir monastır kompleksi inşa edilib. XIII əsrdə monqol hücumları zamanı bu monastır dağıntılara məruz qalıb. 1858-ci ildə Amaras monastır kompleksi bərpa olunub (Vəlişov, 2009). Tarixi mənbələr və sənədlər göstərir ki, Amarasda daş işləmə, dulusçuluq, şüşə istehsalı və digər sənətlər geniş şəkildə inkişaf edib. Amaras monastırı - bu qiymətli arxeoloji mədəniyyət abidəsi 1992-ci ildən erməni işğalında zülüm çəkmişdir.

“Monastır” sözü yunan dilində “zahidin hücrəsi” mənasını verir (Azərbaycan dilinin izahlı lüğəti – c.3). Monastır nizamnaməsi özünəməxsus dini əxlaq normalarını, o cümlədən tərkidünyalığı, dua etməyi, nikahsızlığı və s. özündə əks etdirir.

Xocavənd rayonunun Dolanlar kəndi ərazisində yerləşən tarixi memarlıq abidələrindən biri “Dolanlar” məbədi adlanır. Bir sıra tədqiqatçılar bu memarlıq abidəsini orta əsrlərə (XII-XIV əsrlər) aid hesab edirlər (Vəlişov, 2009). Məbədin ərazisində aparılan qazıntılar zamanı müxtəlif tarixi dövrlərə aid nümunələr aşkar edilib. Memarlıq abidəsi sayılan məbədlər - məscidlər, kilsələr, sinaqoqlar, iqamətgahlar müxtəlif ölkələrdə memarlığın inkişafına uyğun

olaraq tarixən formasını dəyişərək milli xüsusiyyətlər qazanmışdır. Dolanlar məbədinin adı ərazidəki Dolanlar kəndinin adı ilə bağlıdır.

Tuğ kəndi ərazisində yerləşən və X əsrə aid olan tarixi memarlıq abidələrindən biri "Qırmızı" məbəddir. Milli memarlıq abidəsi kimi tanınan və dövlətimiz tərəfindən qorunan Qırmızı məbəd erməni işğalından sonra müxtəlif dağıntılara məruz qalmışdır. Məbədin "Qırmızı" adlandırılması, fikrimizcə, onun tikinti materialının qırmızı rəngdə olmasından irəli gəlir.

Tuğ kəndi ərazisində qeydə alınmış obyektlərdən biri Ritiş qalası adlanır. Ritiş qalası Erkən Orta əsrlərə (V-VIII əsrlər) aid tarixi memarlıq abidələrindən hesab olunur (ATL – c.1). Bu alban dövrü abidəsi qorunan mədəniyyət incilərimiz sırasındadır. Erməni işğalından sonra bu qala da dağıntıya məruz qalmışdır.

Rzaqulu bəy türbəsi Düdükçü kəndində yerləşir və XIII əsrə aid abidədir (Azərbaycanın tarixi abidələri və toponimləri, 2016). Türbə öz adını onu tikdirən şəxsdən almışdır.

Erməni təcavüzü nəticəsində, Xocavənd rayonunun dağıntıya məruz qalmış mədəni və dini abidələri çoxdur. Onlardan biri də Muğanlı kəndinin ərazisində qeydə alınan Seyid Rza günbəzi adlanır. Seyid - dini titul və zümrəni bildirir, Rza şəxs adıdır. Abidə seyid dini titulu daşıyan Rza adlı şəxsin məzarı üzərində ucaldılan türbə ilə əlaqədar olaraq bu şəkildə adlandırılmışdır. Azərbaycanda bu tipli coğrafi adlara çox yerdə rast gəlmək mümkündür.

Ermənilər işğal altında olan Füzuli rayonu ərazisində yerləşən, ən qədim insan məskənlərindən biri sayılan Azıx mağarasında, eləcə də Xocavənd və Ağdərə rayonlarında arxeoloji qazıntılar aparırlar. Azıx mağarasında arxeoloji tədqiqatlar 2001-ci ildən etibarən başlayıb. Qeyd edək ki, bu mağara ilk dəfə 1960-cı illərdə Azərbaycan alimləri tərəfindən kəşf edilib və orada qədim insan sümükləri aşkar edilib (Müseyibli, 2020). Bu sümüklər indiyə qədər tapılmış ən qədim insan sümükləri kimi qəbul edilir. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin rəsmi məlumatına görə, hərbi təcavüz nəticəsində işğal olunmuş ərazilərdə yerləşən Azıx və Tağlar mağaraları, Qaraköpək və Üzərliktəpə kurqanları hazırda hərbi məqsədlərlə istifadə edilərək qəsdən dağıdılır.

Sözsüz ki, erməni təcavüzündən azad olunmuş torpaqlarda bütün Azərbaycan üçün əhəmiyyətli işlər həyata keçirilir. Bu istiqamətdə aparılan tədbirlərə, birinci növbədə, tarixi-memarlıq mədəniyyət nümunələrimizi bərpa etməklə başlamaq lazımdır. Bu ərazidə tarixi abidələrin bərpa işləri həyata keçirilir.

Ümumiyyətlə, işğaldan azad edilmiş Qarabağın bütün rayonlarının müxtəlif tarixi-memarlıq abidələrinin tədqiq edilməsi, bərpası, qədim və Orta əsrlərdə Qarabağ və onun ətraf ərazilərinin tarixinin, memarlığının öyrənilməsi, həmin elmi araşdırmaların nəticələrinin beynəlxalq aləmdə yayılması hər bir vətəndaşın qarşıda duran ən mühüm vəzifələrdir. Dağlıq Qarabağ və ətraf rayonların abidələrini əhatə edəcək tədqiqatlar sistemli şəkildə bir neçə mərhələdə aparılmalıdır (Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsünün təstiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 2001).

1. Tarixi abidələrin peşəkarlıqla mühafizəsi abidələrin və mədəniyyət sərvətlərinin qorunmasına xidmət edir. Bunların ictimaiyyət üçün daimi olaraq əlçatan olması üçün onları saxlamaq lazımdır.

Tarixi abidələrin mühafizəsi ilə bağlı ilk müasir qanunlar 100 ildən çox əvvəl qəbul edilib və o vaxtdan bəri davamlı olaraq inkişaf etdirilir. Konservasiya tədbirlərinin bəziləri hərtərəfli müayinə və bərpaçılar tərəfindən müvafiq obyektin vəziyyətinin qiymətləndirilməsi ilə başlayır və zəruri hallarda konservasiyaya və ya bərpaya səbəb olur. Rayon ərazisində ziyan dəymiş bütün tarixi abidələr müəyyənləşməli və bu ziyanın məbləği müəyyənləşməlidir. Ermənilər bu torpaqlarda 30 il ərzində amansız işğallar aparmış və abidələrə müxtəlif dərəcəli ziyan vurmuşlar. İlleqal yolla apardıqları arxeoloji qazıntılarla mədəniyyət abidələrimizi də ya

saxtalaşdırıblar, ya da "guya" özlərinə məxsus kimi qələmə verməyə çalışıblar. Təəssüf doğuran məsələ budur ki, bu işlərdə Avropa alimləri də iştirak etmiş və bu haqsız işğala dəstək vermişlər. Qarabağ ərazisində, xüsusən də Xocavənd rayonunda dağıntılara hədəf olmuş abidələr qədim Albaniya dövlətinə aid olan və ondan sonrakı dövrlərdə tikilmiş abidələrdir.

2. Azad olunmuş torpaqlarda yenidən qazıntı işləri aparılmalı, tapılmış yeni mədəniyyət nümunələrinin təhlili verilməli, zərər görmüş komplekslər yenidən bərpa edilməlidir. Bərpa obyektin ilkin vəziyyətinə qaytarılmasına xidmət edir, konservasiya tədbirləri isə onu tələskənlikdən qorumaq üçün nəzərdə tutulur, hər iki halda kimyəvi, bioloji və fiziki təsir göstərən bərpaçılar tərəfindən çox fərqli tədbirlər görülə bilər, konservasiya zamanı, məsələn, obyektin havaya məruz qalmaması üçün dam örtüyünün ucaldılması məna verə bilər.

Abidələr üzərində, yəqin ki, ən çox görülən işlərdən biri də il boyu sadə təmir işləridir. Buraya, məsələn, müntəzəm rəngləmə işləri ilə yaxın ətrafı da daxil olmaqla, abidənin təmizlənməsi və baxımı daxildir.

3. Rayon ərazisində qədim Albaniya dövləti və Erkən Orta əsrlərdə mövcud olan bütün abidələr sənədləşməlidir.

4. Abidələrin mühafizəsi üçün mühafizəçi peşəsi istiqamətində tədqiqatların hazırlanması çox tövsiyə olunur. Təhsillər texniki kolleclərdə, universitetlərdə və ölkədən kənarda, həmçinin xüsusi institutlarda tamamlana bilər. Həm də tənqidçinin eksperti olmaq mümkündür. Belə olduqda abidənin konservatorları və bərpaçıları bərpaetmə tədbirlərini səriştəli, peşəkar və davamlı şəkildə həyata keçirməyə kömək edən elmi əsasları və texniki bilikləri öyrənə bilərlər, çünki abidələrin əksəriyyəti unikaldır və əvəzolunmazdır.

5. Tarixən dəqiq rekonstruksiyanı təmin etməklə zədələnmiş ərazilərin bərpa planlarını hazırlamaq üçün beynəlxalq ekspertlərlə tərəfdaşlıq edib dağılmış ərazilərin bərpası və ortaq mədəni irsin qorunması üçün beynəlxalq donorlar tərəfindən dəstəklənən birgə irsin bərpası fondunun yaradılması.

İşğaldan azad edilmiş torpaqlarda milli-mənəvi dəyərlərimizin qorunması istiqaməti bununla bitmir. Ermənilər tərəfindən dağıdılmış tarixi-memarlıq komplekslərinin bərpası və konservasiyası, bölgədəki bütün abidələrin aşkar edilərək qeydə alınması üçün arxeoloji tədqiqatların aparılması əsas vəzifələrdəndir.

Dağlıq Qarabağın və onun ətraf rayonlarının uzun müddət işğalı nəticəsində həmin ərazilərdə bioloji müxtəlifliyə, o cümlədən flora və fauna növlərinə, habelə xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi ziyan dəyib. Ərazilərin yandırılması, su ehtiyatlarının çirkləndirilməsi, əhalinin qəsdən sudan məhrum edilməsi, qiymətli ağac növləri ilə zəngin meşələrin, o cümlədən təbiət abidələrinin, yeraltı və yerüstü təbii sərvətlərin yandırılması nəticəsində ekoloji tarazlıq pozulmuşdur.

Vətən müharibəsi illərində işğaldan azad edilmiş ərazilərin su-energetika potensialı kifayət qədər böyükdür. Müharibədən sonrakı mərhələdə Azərbaycan bu potensialdan maksimum səmərəli və ekoloji normalara riayət etməklə istifadə etmək niyyətindədir. Hazırda işğaldan azad edilmiş ərazilərdə bütün su ehtiyatları araşdırılır və təhlil edilir. Həmin su mənbələrindən istifadə gələcəkdə ölkəmizə böyük üstünlüklər gətirəcək.

30 ildən sonra azad olunmuş torpaqlarda aparılan tədqiqatlar geniş və kompleks şəkildə həyata keçirilməlidir. Xocavənd rayonunun dağ və düzənlik əraziləri coğrafi mövqeyinə görə bir-birini tamamlayır və buna görə də aparılan tədqiqatlar rayonu bütövlükdə əhatə etməlidir. Rayon ərazisində memarlıq abidələri bərpa olunarkən memarlıq və mühəndislik işləri vəhdət şəkildə özünü göstərməlidir. Bunun üçün müxtəlif layihələr hazırlanmalı, bu işdə peşəkar olan təşkilatlar bu işə cəlb olunmalıdır. Bu obyektləri bərpa edərkən ən vacib cəhət odur ki, abidələr tarixən olduğu vəziyyətə qayıtmalı və bu istiqamətdə təhlillər aparılmalı, sənədlərə müraciət olunmalıdır.

Tarix boyu Ermənistanın xalqımıza qarşı, onun mədəniyyətinə qarşı olan təcavüzü müxtəlif formada baş verib. Özümüzü, kimliyimizi təsdiq edən tarixi-memarlıq nümunələri təkcə yox olmamış, həm də dəyişdirilmişdir. Erməni vəhşiliyi bunlarla da kifayətlənməyərək abidələri təhqir etmiş, rayonda qeydə alınan məscidlərdə donuz saxlamış, bu ərazilərin bizə aidliyini sübut edən, keçmişdən qorunub saxlanılan məbədləri erməniləşdirmişlər. Bu əməllər Ermənistanın bütün dünyaya qarşı olan soyqırımıdır.

Ermənilər tarix boyu zəbt etdikləri torpaqları özlərinki etməyə çalışmış, bunu dünyaya sübut etmək üçün əlindən gələni etmiş və bu yolda əl atdıqları metodlarla tarixi saxtalaşdırmaqdan çəkinməmişlər. Bu metodlar aşağıdakılardır:

1. İşğal etdikləri ərazilərdə daşdan xaçlar və kilsələr tikirdilər.

2. Xristianlıq dini meydana gələnə qədər olan dövr ərzində mövcud olan tarixi abidələrin özlərinə məxsusluğu haqqında siyasət aparırdılar, bu da erməni lobbisinin dünyada yayılması ilə baş verirdi.

3. Xristianlıq meydana gəldikdən sonrakı dövrə aid abidələrin ornamentlərini dəyişdirərək onları qriqoryanlaşdırıblar.

4. Müsəlmanlara məxsus dini memarlıq nümunələrini tamamilə dağıdıb yox edirdilər.

Xocavənd rayonunun işğalından öncə ərazidə muzeylərin fəaliyyət göstərdiyini əsas götürərək bildirməliyik ki, həmin muzeylər yenidən bərpa edilməli, onların bərpası üçün atılan addımlar əsas məsələlərdən birinə çevrilməlidir. Xüsusən də Tarix muzeyinin fəaliyyəti yenidən başlamalıdır.

Muzey təyinatlı obyektlərin hər bir qrupu onların dizaynından başlayıb yenidənqurmaya kimi xüsusi üsullarla aparılmalı, bu işə təcrübəli mütəxəssislər cəlb olunmalıdır. Bərpa edilmiş muzeylər tələblərə və müasir standartlara cavab verməlidir.

Xocavənd rayonunda yenidənqurma işləri zamanı nəzərə alınmalı məsələlərdən biri də ərazinin təbii mənbələrlə zəngin olduğunu unutmamaqdır. Ancaq Birinci Qarabağ müharibəsində və Vətən müharibəsində təbiət ciddi şəkildə ziyan görmüşdür.

Bu istiqamətdə aparılacaq işlərdə ən yaxşı təklif, bizcə, rayonda parkların salınması və bu parklarda tariximizi əks etdirən dizayna yer verilməsidir.

Nəticədə, parkların tarixi ornamentlərlə dizayn edilməsi rayonda aparılan bərpa işlərinə də müsbət təsir göstərəcək.

Erməni seperatçılarından xilas olmuş ərazilərdə - Xocavənd rayonunda aparılmış restavrasiya ilə bağlı təhlillərin nəticəsi analiz-sintez edilməli, qruplaşdırılmalı, ümumiləşdirilməlidir. Belə ümumiləşdirmələrdən sonra hazırlanan tədbirlər planı təsdiq edilməli, rayon mərkəzinin, ayrı-ayrı kəndlərin bərpası istiqamətində işlər həyata keçirilməlidir.

Birinci Qarabağ müharibəsində Xocavənd rayonunun ərazisində, demək olar ki, tarixi-mədəni abidələrin hamısı zərər görmüş, erməni vəhşiliyinə hədəf olmamış abidə qalmayıb. Ancaq məqsəd ondan ibarətdir ki, rayon ərazisi və onun mədəniyyət nümunələri bərpa edilməlidir (Məmmədov, 2015).

Ermənistan Respublikası işğal olunmuş ərazilərimizdə maddi və mədəniyyət abidələrinə qarşı törədilmiş təcavüz, vandalizm və terror aktlarına görə birbaşa beynəlxalq hüquqi məsuliyyət daşıyır. Beynəlxalq və regional təşkilatlar işğalçı Ermənistanın Azərbaycanın tarixi, mədəni və mənəvi abidələrinə qarşı törətdiyi vandalizmə qarşı ciddi tədbirlər görməlidir. Şücaəti və qanı ilə tarix yazan, öz torpağında antiterror əməliyyatı keçirən Azərbaycan ordusunun işğaldan azad etdiyi ərazilərdəki tarixi abidələrə, eləcə də dini abidələrə, türbələrə, muzeylərə, evlərə və s. Bu məsələdə işğalçı dövlətə qarşı ciddi tədbirlər görülməli, beynəlxalq hüquqi baxımdan əməli addımlar atılmalıdır.

Ermənistanın Azərbaycana təcavüzü zamanı Azərbaycanın əzəli torpaqlarında, o cümlədən Qarabağda və ətraf rayonlarda 1600 müsəlman dini abidəsi ermənilər tərəfindən dağıdılıb, 1700 tarix və mədəniyyət abidəsinin üzərindəki tarix və divar yazıları götürülərək

erməni mətnləri ilə əvəz edilib, 100 minə yaxın eksponatın taleyi məlum deyil. 500-ə qədər tarixi memarlıq, 100-dən çox arxeoloji abidə, kolleksiyalarında on minlərlə əşya olan 22 muzey, 4 rəsm qalereyası, 4,6 milyon kitab və əlyazma nüsxəsi olan 927 kitabxana, 808 klub, 85 musiqi və incəsənət məktəbi, 10 mədəniyyət və istirahət təşkilatı, bundan əlavə, Ermənistanın silahlı hərbi təcavüzü nəticəsində fərdi yaşayış evlərində saxlanılan 100 min ədəd dekorativ-tətbiqi sənət xalçaları, qədim tikişli paltarlar, zərgərlik və mis məmulatlar yandırılmış, talan edilmiş, Ermənistana aparılaraq dələduzluq yolu ilə mənimsənilmiş və ya onların bir qismi "erməni mədəniyyəti nümunələri" adı altında xarici ölkələrə satılmışdır (Talıblı, 2024). Bundan başqa, dünya əhəmiyyətli arxeoloji abidələrdən olan paleolit dövrünə aid Azıx və Tağlar mağara düşərgələri, Xantəpə, Kültəpə və Şomütəpə eneolit abidələri kimi eramızdan əvvəl VII-VI əsrlərə və hələ də bəşər sivilizasiyasının tədqiqi üçün elmi əhəmiyyət kəsb edən, eləcə də erməni işğalının qurbanı olmuş Azərbaycanın xristianlıq dövründən qalan alban abidələri, maska kompleksləri, qədim qəbiristanlıqları, türbələri, sarayları, qalaları, körpüləri, qədim yaşayış məskənləri, arxeoloji abidələri bu vandalizmin qurbanı olmuşdur.

Mədəni irsi sosial və hüquqi baxımdan necə görmək istəməyimiz barədə bəzi fikirlər:

1. Mədəni irs insanları öz köklərinə bağlayan cəmiyyətin kollektiv yaddaşını əks etdirir. Bu irsin qorunması ümumi regional kimliyə töhfə verir və regionun tarixi haqqında daha geniş, əhatəli anlayışı təşviq edir.

2. Ermənistanda Azərbaycan ərazilərinin mühafizəsinin təmin edilməsi.

Xocavənd rayonunda, ümumiyyətlə, tarixi-memarlıq abidələrinin bərpa olunduğu bütün ərazilərdə yol şəbəkəsi üzərində işləyərkən, obyektin perspektivli inkişafı və onun memarlıq strukturlarının, ekskursiya marşrutlarının iştirakını təmin etmək vacibdir. Bu səbəbdən, tarixi obyektin təyinatını bilmək, muzey, məscid, saray, xatirə evləri, heykəllər və s. kimi böyük və kiçik tarixi-memarlıq abidələrinə gedən yol şəbəkəsinin müəyyən qədər yenidən qurulmasının zəruriliyini və məqbulluğunu müəyyən edir (Müharibə və tarixi-mədəniyyət abidələrimiz: işğal olunmuş Azərbaycan ərazilərində xənagahlar, pirlər, ziyarətgahlar, 2006).

## NƏTİCƏ

Azərbaycan dövləti və xalqı öz tarixi və qədim torpaqlarında haqlı və beynəlxalq hüquqa əsaslanan mübarizəsini davam etdirmiş, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə zəfər qazanmış ordumuz 30 ilə yaxındır işğal altında olan Azərbaycanın tarixi torpaqlarında antiterror əməliyyatı həyata keçirmişdir. Azərbaycan xalqı torpağımızı işğaldan azad etməklə yanaşı, beynəlxalq və regional güclərin hərtərəfli dəstəyi ilə işğalçı Ermənistan dövlətinin xalqımıza qarşı törətdiyi etnik təmizləmə, köçürmə, soyqırım və vandalizmin qisasını aldı.

Qarabağ Azərbaycanın strateji ərazisidir. Bütün ərazilər, şəhərlər və kəndlər yeni modelə uyğun bərpa olunur. Əsas prioritet həm də Qarabağ bölgəsinin resurslarından mütənasib istifadə, eləcə də keçmiş məcburi köçkünlərin tədricən öz evlərinə qayıtmasıdır. Hazırda bərpa və tikinti işləri uğurla davam etdirilir. Təbii ki, Azərbaycan bu işləri öz gücü və vəsaiti hesabına həyata keçirir. Məqsəd işləri tez bir zamanda başa çatdırmaq və məcburi köçkün vətəndaşlarımızı layiqli şəkildə öz doğma yurdlarına qaytarmaqdır.

Dövlət başçısının sərəncamlarına əsasən, işğaldan azad edilmiş ərazilərin tam bərpasına yönəlmiş orqanlar yaradılıb. Bərpa işlərinin əsasını beynəlxalq təcrübə, hərtərəfli planlaşdırma və müvafiq strukturların işinin səmərəli əlaqələndirilməsi təşkil edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilinin izahlı lüğəti. [4 cilddə] / Red. hey. sədri Ə.Ə.Orucov. – Bakı: Şərq-Qərb, - c. 3. - 2006. – 672 s.

Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsünün təstiq edilməsi

haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 132 nömrəli Qərarı. 2 avqust 2001-ci ildə qəbul edilmişdir. - Bakı: 2001.

Azərbaycanın tarixi abidələri və toponimləri. Biblioqrafiya: / tərt. ed. G.Səfərəliyeva - Bakı: Zərdabi-Nəşr, - 2016. - 646 s.

Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. [2 cilddə] / Red. hey. sədri R.Z.Əliyeva. – Bakı: Şərq-Qərb, - c. 1. - 2007. – 300 s.

Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. [2 cilddə] / Red. hey. sədri R.Z.Əliyeva. – Bakı: Şərq-Qərb, - c. 2. - 2007. – 304 s.

Məmmədov, N.Q. İşğal altındakı tarixi-dini abidələrimiz. - Bakı: Nurlar, - 2015. - 96 s.

Müharibə və tarixi-mədəniyyət abidələrimiz: işğal olunmuş Azərbaycan ərazilərində xənagahlar,

pirlər, ziyarətgahlar. - Bakı: 2006. - 63 s.

Müseyibli, N.Ə. Azıx mağarasında tədqiqat işləri bərpa olunacaq // AMEA. science.gov.az. 30 dekabr 2020.

Talıblı, S.Ə. Historical and Cultural Heritage of Azerbaijan Destroyed as a Result of Armenian Aggression // Çikaqo: International Journal of Historical Researches, - 2024. No. 2. Vol. 9. – s. 1511-1529.

Vəlişov, N.T. Xocavənd ensiklopediyası. - Bakı: Zərdabi LTD, - 2009. - 543 s.